# Unutmayaq, unutdurmayaq!

**20 Yanvar hadisələrinin xalqın tarixi yaddaşında həkk olunmasında mədəniyyətin rolu danılmazdır.**

Bu şanlı tarixi gələcək nəsillərə olduğu kimi çatdırmaq və unutdurmamaq məqsədilə Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyində Abdulla Şaiqin mənzil-muzeyi ilə birlikdə 20 Yanvar hadisələrinin 33-cü ildönümünə həsr olunan "Unutmayaq, unutdurmayaq!" adlı tədbir keçirilib. Tədbirdə muzey rəhbərləri və əməkdaşları, Zərifə Əliyeva adına liseyin şagird və müəllim kollektivi iştirak ediblər.



Muzeydən bildirilib ki, Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Anım tədbirində 20 Yanvar hadisəsindən və Mstislav Rostropoviçin xalqımızın başına gətirilən bəlalara biganə qalmamasından, Şəhidlər xiyabanı, qaçqın düşərgələrinə etdiyi ziyarətlərdən bəhs edilib və videoçarx təqdim olunub.

Azərbaycan.- 2023.- 22 yanvar.- S.11.